*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 24–32
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 24–32
DOI: https://doi.org/10.36719/2706-6185/60/24-32

# 1980-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin mətbuata təsiri

**Günay Məmmədova**

***Xülasə***. *XX əsrin 80-ci illərində SSRİ-nin dərin iqtisadi böhran içərisində çabaladığı, mənəvi-psixoloji aşılanmanın son həddə çatdığı, ictimai-siyasi hərc-mərcliyin hökm sürdüyü hər addımda hiss olunurdu, həmçinin dünyada mühafizəkar qüvvələrin fəallaşması bir çox əsarət altında yaşayan ölkələrə təsir edirdi. Göründüyü kimi, SSRİ-nin bütün iqtisadi sistemi, ideologiyası, daxili və xarici siyasəti köklü surətdə yenidənqurmaya, ciddi islahatlara, əsaslı dəyişikliklərə möhtac idi.*
*1985-ci ilin mart ayında SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə ölkəni iqtisadi böhrandan çıxmaq meylləri "yenidənqurma" siyasəti adı altında pərdələnməyə başlandı. Xarici ədəbiyyat bunu "Qorbaçov inqilabı" adlandırır. Həqiqətən də ölkənin həm iqtisadiyyatı, həm də ideologiyası ciddi yenidənqurma tələb edir. "Yenidənqurma" əvvəl xalq təsərrüfatının inkişafını sürətləndirmək siyasətindən başladı. Sonra iqtisadi, siyasi və hüquqi islahatlar həyata keçirilməsinə başlanıldı. Qarbaçovun nisbətən cavan olması xalqda müəyyən ümidlər doğurmuşdu. "Yenidənqurma" siyasətində demokratiya anlayışının önə sürülməsi Sovet imperiyasının tərkibində olan millətlərin siyasi həyatı ilə yanaşı mətbuatına da bir sıra dəyişikliklər gətirdi. Qəzetlərin məzmununda obyektiv yanaşmalar və fikirlər yer almağa başladı.*

***Açar sözlər:*** *yenidənqurma, mətbuat, Qarabağ, antitürk siyasət, qəzet, müstəqillik dövrü, kommunist ideologiyası, ilk gizli nəşrlər*

---

Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: g-alizade87@mail.ru
Daxil oldu: 17 Dekabr 2025; Qəbul edildi: 7 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Impact of the Social and Political Situation in Azerbaijan in the 1980s on the Press

**Gunay Mammadova**

***Abstract.*** *In the 1980s, the Soviet Union was experiencing a profound economic crisis, the process of moral-psychological indoctrination had reached its final stage, and societal-political turmoil was evident at every step. Additionally, the growing influence of conservative powers around the world was impacting many countries under occupation. As can be seen, the entire economic system, ideology, and both domestic and foreign policies of the USSR were in dire need of a fundamental restructuring, serious reforms, and substantial changes.*
*In March 1985, with Mikhail Gorbachev coming to power in the Soviet Union, the policy of "perestroika" (restructuring) was initiated in an attempt to overcome the crisis.*

*This policy is often* referred to in foreign literature as the "Gorbachev revolution." Indeed, both the country's economy and its ideology required a significant overhaul. "Perestroika" initially began with a policy aimed at accelerating the development of the national economy. Subsequently, economic, political, and legal reforms were implemented. Gorbachev's relative youth sparked some hope among the public. The emphasis on democracy within the "perestroika" policy led to changes in the political life and media of the nations within the Soviet Empire. Newspapers began to reflect more objective perspectives and views.

***Keywords:*** *perestroika, press, Nagorno-Karabakh, anti-Turkish policy, newspaper, independence period, communist ideology, first clandestine publications*

---

Baku State University, PhD in Philology, Baku, Azerbaijan
Email: g-alizade87@mail.ru
Received: 17 December 2025; Accepted: 7 April 2026; Published online: 28 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

1980-ci illərdə Mixail Qorbaçov tərəfindən irəli sürülən "yenidənqurma" (perestroyka) siyasəti çərçivəsində sosializm, demokratiya və aşkarlıq (qlasnost) kimi prinsiplərin həyata keçirilməsi nəzərdə tutulurdu. Bu siyasət cəmiyyətdə obyektiv olaraq demokratik dəyərlərin və azadfikirliliyin ilkin rüşeymlərinin formalaşmasına zəmin yaratdı. Lakin Azərbaycan 1988-ci ilin əvvəllərinədək SSRİ-də baş verən bu müsbət transformasiya proseslərindən faktiki olaraq müəyyən dərəcədə kənarda qalmışdı. Real problemlərin üstünün örtülməsi, mövcud ictimai-siyasi mühitdə onların ictimai müzakirədən yayındırılması və ümumi rifah illüziyasının yaradılması dominant xüsusiyyət kimi çıxış edirdi (Əliyev, 2014).

Azərbaycan təbii resurs baxımından zəngin olmasına baxmayaraq, ciddi sosial-iqtisadi çətinliklərlə üzləşmişdi. Sosial infrastrukturun ləngiməsi – xəstəxanaların, təhsil müəssisələrinin və mənzil fondunun çatışmazlığı, o cümlədən adambaşına düşən milli gəlirin aşağı səviyyədə olması respublikanın geridə qalan regionlar sırasında yer almasına səbəb olmuşdu. Aşkarlıq mühitinin və siyasi plüralizmin təşviqi nəticəsində "Yenidənqurma" siyasəti çərçivəsində demokratik institutların, təxminən 70 il ərzində cəmiyyətdə, həmçinin milli münasibətlər sahəsində yığılıb qalmış problem və ziddiyyətləri üzə çıxmağa başladı. Bu proseslər eyni zamanda mərkəzdənqaçma meyllərinin güclənməsi ilə müşayiət olunurdu. İctimai-siyasi həyatda demokratikləşmə və açıq müzakirə mühiti genişlənir, mətbuat daha fəal rol oynamağa başlayırdı. Aşkarlıq prinsipindən istifadə edən Azərbaycan mətbuatı xüsusilə 1920–1940-cı illəri əhatə edən tarixi dövrü yenidən qiymətləndirərək tənqidi təhlillər təqdim edirdi. Bu çərçivədə Mir Cəfər Bağırov dövrünün repressiv idarəetmə üsulları, qeyri-humanist siyasəti, totalitar idarəçilik metodları və bolşevik ideologiyasının milli ayrı-seçkilik xüsusiyyətləri ifşa olunurdu. Lakin atılan ilk addımlardan, görülən ilk tədbirlərdən hiss olunurdu ki, Mixail Qorbaçov belə böyük ölkəni idarə etmək, bu ağır vəzifəni yerinə yetirmək qabiliyyətindən çox uzaqdır. Buna görə də M.Qorbaçovun "yenidənqurma" adı ilə aparmaq istədiyi islahatların uğursuz olacağı çoxları üçün şübhə doğurmurdu.

Ümumilikdə, sovet mətbuat sisteminin tərkib hissəsi olan Azərbaycan mətbuatının əsas xüsusiyyətlərindən biri onun siyasi-ideoloji və təbliğat yönümlü olması idi. Tarixi və ictimai əsasları zəif olan bu sistem uzun müddət fəaliyyət göstərsə də, mahiyyət etibarilə sovet rejiminin ideoloji aləti kimi çıxış etmişdir. Nəticə etibarilə, sovet siyasi sisteminin süqutu ilə bu mətbuat modeli də öz funksionallığını itirərək iflasa uğramışdır (Məmmədli, 2018, s. 33).

**"Yenidənqurma" siyasəti və islahatların mətbuata təsiri**

"Yenidənqurma" ərəfəsində və dövründə ölkənin iqtisadi tənəzzüldə boğulduğunu aydın təsəvvür etmək üçün cəmiyyətin ümumi mənzərəsini nəzərdən keçirmək kifayətdir. Xalq təsərrüfatının elə bir sahəsi yox idi ki, orada ayrı-ayrı göstəricilər üzrə geriləmə olmasın. Xalqa verilən heç bir vəd-ərzaq proqramı, mənzil proqramı və təhsil sahəsində islahatlar yerinə yetirilə bilmədi.

Kənd təsərrüfatında vəziyyət daha pisləşirdi. Kənd təsərrüfatında da mövcud idarəetmə metodlarının kökündən dəyişdirilməsinə ciddi ehtiyac vardır. M.Qorbaçov isə problemin dərinliyinə varmaq istəmir, əvvəllərdə olduğu kimi, ənənəvi yolla hər şeyin həll ediləcəyini gözləyirdi. Sov.İKP MK-nın Plenumunda (1989-cu il mart) M.S.Qorbaçov "Müasir şəraitdə Sov.İKP-nin qarar siyasəti haqqında" məruzəsində demişdir. "Həqiqət belədir ki, kənd təsərrüfatı məhsulumuz çatışmır. Dövlət xaricdən xeyli miqdarda taxıl, ət, meyvə, tərəvəz, şəkər, bitki yağı və bəzi başqa məhsulları satın almağa məcburdur. Biz həm əmək məhsuldarlığı, həm tarlaların məhsuldarlığı, həm də ərzaq məhsullarının müxtəlifliyi və keyfiyyəti sarıdan inkişaf etmiş bütün ölkələrdən (irili-xırdalı ölkələrdən) geri qalırıq" (Hüseynova, 2004, s. 472). İqtisadiyyatın ağır vəziyyətə düşməsinin digər səbəblərindən biri 1986-cı ildə Çernobıl Atom Elektrik Stansiyasındakı qəza oldu. Qəza barədə məlumat əhaliyə və dünya ictimaiyyətinə vaxtında çatdırılmaması fəlakətin nəticələrinin qlobal xarakter almasına səbəb oldu.

Mətbuatda az-çox senzura götürülsə də, hələ də arxivlərin tam açılmasına, mühüm sənədlərin üzə çıxarılmasına icazə verilmirdi. Belə nəticəyə gəlirik ki, M.Qorbaçovun hakimiyyətə gəlişi vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Sovet cəmiyyətinə yeni siyasi sistem kimi təqdim olunan yenidənqurma və aşkarlıq siyasəti sovet ideoloji sisteminin zəifləməsinə şərait yaratdı. Yuxarıdan aşağıya doğru idarə olunan, çoxlu sayda xəbərçilərdən ibarət olan, "KQB" adlanan senzura sisteminin güclü nəzarət şəbəkəsi sarsılmağa başladı. Bir çox xalqları bir araya gətirən Sovet idarəçiliyinin zəifləməsi sosial ədalət istəyən qüvvələrin fəallaşmasına səbəb oldu.

Demokratiya və aşkarlıq siyasətinin genişlənməsi nəticəsində Azərbaycanda dini-mənəvi dəyərlərə, İslam ənənələrinə maraq və dönüş prosesi sürətləndi. Uzun müddət qadağan olunmuş dini fəaliyyətlər tədricən leqallaşdırılıb, müqəddəs ibadət yerlərindən sərbəst istifadə imkanları genişləndi. 1988–1990-cı illər ərzində respublika ərazisində 30-dan artıq məscidin fəaliyyətə başlaması dini həyatın canlanmasının mühüm göstəricilərindən biri oldu. 1989-cu ildə Bakıda islam mədrəsəsinin açılması dini təhsilin institusional əsaslarının formalaşmasına təkan verdi. Bununla yanaşı, 1990-cı ildən etibarən müsəlmanların müqəddəs Məkkə şəhərinə ziyarətlərinin təşkili dini azadlıqların genişlənməsinin praktik ifadəsi kimi çıxış edir. Eyni dövrdə "İslam" qəzetinin nəşrə başlaması da dini ideyaların və maarifləndirici məlumatların ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır.

Respublikada yaşayan azərbaycanlıların İran və Türkiyə ərazisində yaşayan soydaşları ilə əlaqələrinin bərpası istiqamətində də mühüm addımlar atılır. Bu məqsədlə "Sərhəd hərəkatı" adlandırılan ictimai-siyasi proses formalaşır. 1989-cu il 31 dekabr və 1990-cı il 1 yanvar tarixlərində Araz çayı boyunca uzanan 137 km-lik Sovet–İran sərhəd xəttində, həmçinin 1990-cı il yanvarın 7-də SSRİ–Türkiyə sərhədində mövcud olan mühəndis qurğularının dağıdılması nəticəsində sərhədin hər iki tərəfində yaşayan qohum və soydaşların bir-biri ilə təması və gediş-gəlişi bərpa olunur. Ümumiyyətlə, qeyd olunan proseslər Azərbaycanda ictimai-siyasi həyatın dinamikləşməsi, milli və dini özünüdərkin güclənməsinin cəmiyyət daxilində genişmiqyaslı sosial fəallığın artması ilə səciyyələnirildi (Mixail Qorbaçov: Niyə onun yenidənqurma siyasəti SSRİ-ni qoruya bilmədi, n.d.).

İqtisadi çətinliklər, ölkənin qeyri-peşəkarcasına idarə olunması imperiyanın tərkibində yaşayan xalqlarda müstəqillik meyillərini alovlandırdı. Baltikyanı ölkələrdə, Gürcüstan və Ukranıyanın qərb bölgələrində həm ziyalılar, həm də adi vətəndaşlar müstəqillik hərəkatına başladılar. 1989-cu ildə avqust-sentyabr aylarında Baltikyanı ölkələrdə nümayişlər başlandı. Nümayişçilər respublikaların SSRİ-nin tərkibindən çıxmasını tələb edirdilər. Qərbi Ukraynanı, Moldaviyanı və Tacikistanı nümayişlər dalğası bürümüşdü. Tatarıstan, Çeçenistan da müstəqillik uğrunda mübarizəyə qoşulmuşdular. Mərkəzdənqaçma qüvvələrin fəallaşması Sovet İmperiyasının vəziyyətini daha da mürəkkəbləşdirdi. Digər tərəfdən, partiya rəhbərliyinin və demokratik qüvvələrin siyasətdə və

iqtisadiyyatda düşünülməmiş radikal islahat tələbləri ölkədə başlanmış böhranı daha da dərinləşdirdi. Milli respublikalarda və regionlarda mərkəzə qarşı kütləvi çıxışlar, mitinqlər daha geniş vüsət aldı. Parçalanmağa heç cür razı olmayan Sovet İttiffaqı bu vəziyyətdən çıxışı yolunu çirkin əməllərə əl atmaqda gördü. Sovet imperiyasını yenidən bərpası üçün hazırlanmış layihə və tədbirlərə başlanıldı, xalqları bir-birinə düşmən etməklə hadisələrin qarşısını almağa çalışırdılar. Tbilisidə, Bakıda, Litvada və digər şəhərlərdə törədilən qırğınlar SSRİ-dəki böhran vəziyyətini daha da acınacaqlı bir vəziyyətə saldı. Ayrı-ayrı respublikalar kommunist rejiminin mövcudluğu ilə barışmayaraq mübarizə aparırdı. Çoxlu sayda millətləri və xalqları öz əsarətində saxlayan Sovet İttifaqı dünya ictimaiyyətinin nəzərində təcəvüzkar dövlət kimi tanınırdı. Xalqların milli özünüdərkinə əngəl törədən, suveren hüquqlarını tapdalayan hakim rejim həm də, milli sərvətlərin sahib olduğu millətlərdən alınaraq talan edilməsinə şərait yaradırdı. Bu da etiraz dalğasını daha da genişləndirdi. Sözlə iş, nəzəriyyə ilə praktika arasında dərin uçurum vardı. “Yenidənqurma” və “Aşkarlıq” adı altında görülən saxta addımlar da bir bəhrə vermədi, əksinə iqtisadiyyata ciddi ziyan vurdu, cəmiyyətləri açıq siyasət aparmağa cəsarətləndirdi, mərkəzdən qaçan qüvvələrin sayı artdı. Ən əsası Kommunist partiyasının yalançı nüfuzu sarsıldı.

Azərbaycanda Qarbaçov siyasətinin nəticəsi kimi yenidənqurma – yenidənqurulma media aşağıdakı mərhələlərdən keçdi:

- Dövlətin və kommunist partiyasının monopoliyasında fəaliyyət göstərən mətbuat tədricən sahibinin mütləq diktəsindən imtina etməyə başladı. Bu proses “Oqonyok”,” Novıy Mir”, “İzvestiya”, “Komsomolskaya”, “Pravda” və “Literaturnaya Gazeta” kimi mətbuat orqanlarının, həmçinin Azərbaycanda nəşr olunan “Molodyoj Azerbaydjana” və “Kommunist” qəzetlərinin tematikasında öz əksini tapdı.
- SSRİ-nin milli müstəqilliyə can atan respublikalarında qeyri-formal təşkilatların yaranması bu təşkilatlara məxsus qəzet və jurnal tipli nəşrlər meydana gəlməsinə səbəb oldu. Bu qurumların formalaşması tədricən mövcud hakimiyyətə qarşı mübarizəsini daha da gücləndirdi. Ümumiyyətlə, bir çox respublikalarda özlərini “müxalifət” kimi təqdim edən siyasi qüvvələr formalaşdı və birləşən partiya və təşkilatlar hakimiyyətə gəlmək uğrunda mübarizəyə qoşuldular. Yeni ictimai-siyasi dalğa isə bu təşkilatların ideoloji fəaliyyətini təmin edən mətbuat orqanlarının yaranmasına zəmin yaratdı.
- Uzun müddət mətbuat üzərində– təxminən 70 il ərzində monopoliyanı qoruyan sovet sisteminin zəifləməsi və dağılması ehtimalını hiss edən qüvvələr, eyni zamanda, sivil dünya təcrübəsinə əsaslanan kütləvi informasiya vasitələri sisteminin yaradılması istiqamətində təşəbbüslər irəli sürdülər. Bu sonuncu mərhələ əvvəlki mərhələlərin daxilində formalaşsa da, onun real şəkildə gerçəkləşməsi daha gec baş verdi. Bu prosesin həyata keçməsi üçün mövcud siyasi sistemin və rejimin dəyişməsi zəruri idi. SSRİ-nin tam dağılması və bazar münasibətlərinə keçid bu mərhələnin başlanması ilə mümkün oldu.

1980-ci illərin ikinci yarısında Azərbaycanda nəşr olunan bəzi qəzet və jurnallar “aşkarlıq” və “yenidənqurma” prinsiplərinə əsaslanaraq cəmiyyətdə baş verən prosesləri nisbətən obyektiv şəkildə əks etdirməyə başladılar. “Molodyoj Azerbaydjana”, “Odlar Yurdu” və “Elm” qəzetləri ictimai narahatlıq doğuran problemlərlə bağlı tənqidi materiallarla çıxış edir, mövcud quruluşun və ictimai-siyasi münasibətlərin ziddiyyətlərini ön plana çəkirək göstərirdilər. Məzmun və hadisələrə yanaşma baxımından bu nəşrlər digər mətbuat orqanlarından əhəmiyyətli dərəcədə fərqlənirdi. Azərbaycanda yürüdülən antitürk siyasəti isə “yenidənqurma” dövründə ölkə üçün ən ağır nəticələrdən biri kimi özünü göstərdi və bu siyasətin ən bariz təzahürü Qarabağ problemi oldu.

**Azərbaycanda antitürk siyasəti**

“Yenidənqurma” və “aşkarlıq” siyasətinin elan etdiyi nisbətən liberal mühitdən istifadə edən erməni millətçi qüvvələri Qərbi Azərbaycanda antitürk yönümlü siyasətlərini daha da gücləndirib etnik

təmizləmə prosesinə başladı. Bu mərhələdə azərbaycanlıların Ermənistandan növbəti deportasiyası başlandı. 1988-ci ilin fevral ayında Yerevan şəhərində "Ermənistanı türklərdən təmizləməli" və "Ermənistanda yalnız ermənilər yaşamalıdır" kimi şüarlar altında kütləvi antitürk mitinqləri keçirildi. Fevral ayının 21-də isə erməni radikal qrupları tərəfindən şəhərdə fəaliyyət göstərən son məscid dağıdıldı.

Elə həmin il, fevralın 18–23-də təqiblərə məruz qalan azərbaycanlı qaçqınların yeni dalğası Azərbaycana sığınmaq məcburiyyətində qaldı. Erməni tərəfi azərbaycanlılar haqqında mənfi ictimai rəy formalaşdıraraq hadisələrin gedişini məqsədli təxribat xarakterli addımlara yönəltdi. 1988-ci il fevralın 28-də Sumqayıt şəhərində baş verən hadisələr bu kontekstdə xüsusi qeyd olunur. "Paşa" ləqəbli Edik Grigoryan adlı şəxsin iştirakı ilə təxribat xarakterli iğtişaşlar törədilməyə başladı. Bu hadisələrin məhz Sumqayıtda baş verməsi təsadüfi deyildi; çünki, Ermənistan ərzisindən qovulmuş çoxsaylı azərbaycanlılar bu şəhərdə məskunlaşmışdı.

Əvvəlcədən planlaşdırıldırılan hadisələrdə bir sıra faktlar – videolentlərin çəkilməsi, bəzi ermənilərin öncədən banklardan vəsaitlərini çıxarması və şəhəri tərk etməsi – bu qənaəti gücləndirir. Sonralan bu hadisələri bəzi təhriflərlə beynəlxalq ictimaiyyətə təqdim edilərək azərbaycanlılara qarşı mənfi rəy formalaşdırmağa çalışmışdılar. 1988-ci il fevralın 27-də şəhərdə kütləvi iğtişaşlar başlayır, səhəri gün talan və zorakılıq halları baş verir. Nəticədə 32 nəfər (26 erməni və 6 azərbaycanlı) həlak olur, 200-dən artıq ev qarət edilir.

Sumqayıt hadisələrindən sonra Ermənistanda antitürk istiqamətli hərəkat daha da formalaşmağa başladı. Bu zaman qeyri-formal silahlı erməni birləşmələri fəallığı yüksəlməyə başladı. 1988-ci ilin martında azərbaycanlıların yaşadığı ərazilərdə yüzlərlə ev qarət edilərək yandırılır, əhali məcburən öz evlərini tərk etmək məcburiyyətində qalaraq qovulur. Həmin ilin may ayında Yerevan ətrafında yerləşən azərbaycanlı kəndlərinə yenidən hücumlar təşkil edilir (Əliyev, 1989, s. 119). 1988-ci ilin mart–dekabr ayları ərzində yüzlərlə azərbaycanlı qətlə yetirilmiş, minlərlə insan isə İran və Türkiyə sərhədlərini keçərək sığınacaq alır. Eyni zamanda, silahlı hücumlar Azərbaycanın müxtəlif bölgələrinə də yayılır. Qarabağ bölgəsində, xüsusilə Qubadli District ərazisində yerləşən Eyvazlı, Qovudlu və Qədili kəndlərinə hücumlar edilir, qırğınlar törədilir, Kərki kəndi işğal olunaraq yandırılır. Sentyabr ayının 16-da Bakı–Tbilisi sərnişin avtobusu partladılır, 31 iyul 1991-ci ildə isə Moskva–Bakı qatarında güclü partlayış törədirlər.

Ümumiyyətlə, bu prosesdə 230 minə yaxın azərbaycanlı öz doğma yuvalarından qovulur, 225 nəfər isə həyatını itirməklə Qərbi Azərbaycandan deportasiya edilir. Azərbaycanlılara qarşı həyata keçirilən zorakılıq siyasəti onların kütləvi köçməsi ilə sonlanır. Əhalinin Azərbaycana köçü respublikada ictimai-siyasi vəziyyətin daha da gərginləşdirdi. Sovet cəmiyyətini sarsıdan "yenidənqurma" və "aşkarlıq" şüarından istifadə edən erməni siyasi qüvvələri yenidən Azərbaycana qarşı ərazi iddiaları irəli sürürlər.

## Qarabağ münaqişəsi və mətbuatda əksi

Sovet hakimiyyəti dövründə xalqlar arasında konfliktlər, münaqişələr sərtləşdi, mərkəzdənqaçan qüvvələri zəiflətmək üçün ənənəvi "parçala, hökm et" siyasətindən daha geniş istifadə edilərək milli münaqişələr qızışdırıldı, imperiyanın müxtəlif bölgələrində əvvəldən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı. Bu ocaqlardan biri də Azərbaycanda yaradıldı. Qarabağ hadisəsi birdən-birə yarana bilməzdi. Mərkəz buna illərlə ciddi hazırlıq görmüş, çox mükəmməl ssenari tərtib etmişdi. Şübhəsiz ki, bu oyunun əsas icraçıları erməni millətçi dairələri, iştirakçıları isə sadə xalq olmalı idi. Moskvada və İrəvanda illərlə Azərbaycan xalqı əleyhinə nəşr edilən kitablar, qəzetlərdə dərc olunan məqalələr düşmən Azərbaycan obrazı yaratmaq üçün idi. SSRİ-nin dəstəyi ilə hüquqi əsası olmayan Qarabağ komitəsinin fəaliyyəti genişləndi. Ermənistandan Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi ilə dünyanın 30-dan çox dövlət və beynəlxalq təşkilatına 300 min

ermənin imzası ilə müraciətnamələr göndərildi. Azərbaycanlıları təhqir edən, milli münasiqəni qızışdıran sifarişli yazıların yazılması, xüsusi ilə Harun Qazaryanın, Zori Balayanın, S.Xanzadyanın, B.Ulubabyanın, S.Kaputikyanın və başqalarının tarixi saxtalaşdıran “əsərləri” ilə uydurma erməni tarixi yazılırdı. Balayanın “İki od arasında”, “Qəza”, “Ocaq” kitablarında erməniləri özlərinin uydurduğu “tarixi” faktlara inandırmağa cəhd edirdilər. “Literaturnaya qazeta” nın Ermənistan SSR üzrə müxbiri Zori Balayanın 1984-cu ildə rusca buraxılan “Ocaq” kitabında türklər, xüsusilə azərbaycanlılar “vəhşi”, “barbar” adlandırılır. Erməniləri və sətiraltı məna ilə rusları azərbaycanlılara qarşı müharibəyə çağırırdılar.

Erməni təxribat qrupları irəli sürdüyü iddiaların onlara məxsus olmayan ərazilərlə bağlı növbəti hadisəsi 1987-ci ilin oktyabrında baş verdi. Bu zaman İrəvanın Puşkin meydanında “Qarabağ” komitəsinin ilk açıq mitinqi keçirildi. Burada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini irəli sürüldü. Ardınca Dağlıq Qarabağ Muxtar Vilayət Soveti tərəfindən regionun Ermənistana birləşdirilməsi haqqında qərar qəbul olundu.

Azərbaycan xalqı baş verənlərə etiraz olaraq respublikanın ərazi bütövlüyünün qorunması ilə bağlı kütləvi nümayişlərə başladı. Bu vaxt erməni silahlı qüvvələri Azərbaycan ərazilərində açıq hərbi əməliyyatlara girişdi. Hüquq-mühafizə orqanları Sovet rəhbərliyinin göstərişi ilə azərbaycanlı əhalinin əlində olan silahları müsadirə etdilər ki, bu da faktiki olaraq onların tərksilah edilməsi demək idi. “Azadlıq” meydanında keçirilən fasiləsiz mitinqlər və hadisələrə bu cür münasibət rəsmi dairələrdə narazılığı daha da gücləndirdi. 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək təxminən bir milyona yaxın insanın iştirak edirdiyi mitinqlərdə hakimiyyət xalqın tələblərini nəzərə almaq əvəzinə, sovet qoşunları vasitəsilə bu aksiyaları dağıtmağa üstünlük verdi.

Azərbaycan xalqını gözləyən təhlükələri görməmək və qabaqlayıcı tədbirləri həyata keçirməmək Sovet İperiyasını atdığı ən böyük səhv addımlardan biri idi. Belə ki, 1988-ci il ermənilərin Qarabağda cinayətkar hadisələr törətməsi, ondan qabaq isə Qərbi Azərbaycanda yaşayan Azərbaycan türklərinin öz torpaqlarından deportasiya edilməsi, Qarabağda Topxana meşəsində ağacların qırılması və bununla bağlı başlanan mitinqlər hadisələrin məcrasını dəyişdi. 1988-ci ilin fevralında Sumqayıt şəhərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş təxribat xarakterli qırğınlar da SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ilə ermənilərin həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Münaqişənin qızışdırılmasında millətçi erməni ziyalılarının mühüm rolu olmuşdu. Həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün mübarizəyə Azərbaycan ziyalıları da qoşuldu.

1988-ci ildə hərəkatçı və Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun əməkdaşı Ənvər Əliyev “Vətən” adlı rus dilində məqalələr toplusunu nəşr etdi. 1989-cu ilin aprelində “ANS” televiziyasının yaradıcısı olan Vahid Naxış “Rok Oko” adlı bir jurnalı nəşr edib yaydı. 1989-cu ilin mayın 27-də isə Azər Qasımzadə “Dirçəliş” qəzetini nəşr etməyə başladı. A.Qasımzadənin ümumi redaktorluğu ilə “Gülüstan”, “Soy”, “Dönüş” məcmuələri də nəşr edilməyə başlandı. Bir müddət sonra Azərbaycan Xalq Cəbhəsinin, “Yeni Müsavat” Partiyasının, “Birlik” Cəmiyyətinin, Xalq Azadlıq Partiyasının “samizdat” nəşrləri Azərbaycanda yayılmağa başladı. Eyni zamanda Sovetlər Birliyi dövründə qadağan edilmiş mövzularda kitablar da çap edilib gizli qaydalarda oxuculara çatdırılırdı. Qarabağ hadisələrinin başlaması Azərbaycan mətbuatına “yuxarıların” sifarişini yerinə yetirməməyə, xalqın haqq sözünü deməyə təkan verdi. Kütləvi informasiya vasitələrində nəzərəçarpan dərəcədə məzmun dəyişikliyi hiss olunmağa başlanmışdı. Ancaq mətbuat hələ də sovet iqtidarının nəzarətində olduğundan ilk əvvəl “Odlar Yurdu”, “Molodyoj Azerbaydjana” qəzetlərində, “Gənclik”, “Xəzər” jurnallarından başqa, demək olar ki, respublikanın heç bir informasiya vasitəsi həlli vacib məsələlər barədə oxucularla açıq dialoq aparmaq iqtidarında olmadı.

1989-1990-cı illərdə Azərbaycanda “samizdat”ların sayı çox olsa da, müxalif istiqamətli qəzetlərin dövlət qeydiyyatına alınması prosesi də artıq başlanılmışdı. Məsələn, Azərbaycan Xalq Cəbhəsinin

qəzeti kimi nəşr edilən “Azadlıq” 1989-cu ilin dekabrından qeydiyyata alınmışdı və elə ilk sayından icazəli yayılmağa başladı. Qəzet Nəcəf Nəcəfovun redaktorluğu ilə fəaliyyətə başladı.

Azərbaycanda ilk “samizdat” “Dirçəliş” qəzeti 1989-cu ilin may ayının 27-də çapdan çıxdı. “Dirçəliş” qəzeti Azərbaycan Dirçəliş Partiyasının orqanı olub. 1989-cu ildə “Dirçəlməli! Bəsdir daha bu zilləti-zülmət!” şüarı ilə əvvəl “Dönüş” mətbəəsində, daha sonra “Dirçəliş” nəşriyyatında çapdan çıxıb. Baş redaktoru Odər Xəzər (Azər Qasımzadə) olub. Qəzetdə Azərbaycan Xalq Cümhuriyyətinin sənəd və müraciətləri, ölkədə və dünyada baş verən son olaylar, eləcə də Azərbaycan tarixi ilə bağlı yazılar nəşr olunub.

Azərbaycan Xalq Cəbhəsi yarandıqdan sonra müxtəlif mətbuat orqanları fəaliyyətə başlayır. AXC Bülletenlərinin nəşrindən sonra geniş formatda (A3 formatı, “Bülleten” A4 formatında çıxırdı) nəşr edilən ikinci mətbuat orqanı “Meydan” qəzeti idi Bu, həm də nəşr tarixi etibarı ilə AXC-nin ilk qəzetidir. Qəzet 1989-cu ilin sentyabrında gizli olaraq Tovuz rayon mətbəəsində çap edilib. Qəzetin ilk sayı 10 000 (on min) tirajla nəşr olunub (qiyməti 1 manat) və gizli formada gətirilərək Bakıda yayılıb.

Redaksiya Heyəti olaraq nəşr edilən qəzetin Baş məqaləsini yazıçı-jurnalist Səfər Alışarlı yazıb. Baş məqalədə yazılırdı: “Bəylər və xanımlar! Hələlik qeyri-formal xarakter daşıyan bu qəzetin “Meydan” adlandırılması təsadüfi deyildir. Bu ad müxtəlif təkliflər arasından seçilərək qəbul edilmişdir. Seçim zamanı son iki ildə “meydan” anlayışının ictimai təfəkkürdə haqq, ədalət, mübarizə və azadlıq ideyalarının simvoluna çevrildiyi nəzərə alınmışdır. Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun orqanı kimi fəaliyyət göstərən “Azərbaycan” məcmuəsi, 1989-cu ildə həftəlik ictimai-siyasi-tarixi nəşr olaraq çap olunmağa başlayır. Azərbaycan və rus dillərində nəşr edilən məcmuənin baş redaktoru Elmar Məhərrəmov idi. 1988–1989-cu illərdə nəşr olunan bu mətbu orqan əsasən həm Bakıda, həm də regionlarda baş verən ictimai-siyasi proseslər işıqlandırırdı.Ümumiyyətlə, xalqın mövqeyini ifadə edən mətbuat cəmiyyətin ictimai nəzarət mexanizmi kimi çıxış edir. İnformasiyanın dövriyyəsini genişləndirərək insanların intellektual inkişafına təsir göstərən mətbuat milli düşüncənin səviyyəsi ilə birbaşa bağlıdır. Mətbuatın azad və məsuliyyətli göstəriciləri adətən inkişaf etmiş cəmiyyətlərdək fəaliyyətini bağlıdır (Aşırlı, 2009, s. 275).

Azərbaycana qarşı yönəlmiş təxribatlar artıq davamlı xarakter almağa başlamışdı. Xalqın etirazlarını boğmaq məqsədilə sovet rəhbərliyi 1990-cı il yanvarın 20-də Bakıya öz ordusu ilə qoşun yeritdi. 20 Yanvar faciəsi tarixə dəhşətli bir hadisə kimi daxil oldu. Bu mübarizədə ərazi bütövlüyü və müstəqilliyini tələb edən, Qarabağın dinc əhalisi ağır hərbi texnika və silahlardan qətlə yetirildi. İnformasiya axınının qarşısını almaq məqsədilə 1990-cı il yanvarın 19-da yeganə televiziya kanalı olan AzTV-nin enerji bloku partladılaraq sıradan çıxarılır. Bir neçə istiqamətdən Bakı şəhərinə hərbi müdaxilə həyata keçirilmiş, 131 nəfər mülki şəxs həlak olmuş, yüzlərlə insan yaralanmış, 200-dən çox ictimai-siyasi fəal həbs olunaraq Moskva şəhərinə aparılır. Baş verən hadisələr cəmiyyətdə ciddi psixoloji gərginlik və qeyri-müəyyənlik yaradır.

1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Moskvada keçirilən izdihamlı toplantıda Azərbaycanın daimi nümayəndəliyi qarşısına gələrək çıxış edir. O, qeyd edir ki, “Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində ölkə rəhbərliyi tərəfindən vaxtında adekvat siyasi tədbirlər görülsəydi, vəziyyət bu həddə çatmaz, genişmiqyaslı insan tələfatı ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı”. (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20 yanvar 1990-cı il faciəsinin ildönümlərilə bağlı çıxışlarına dair ümumi tarixi arayış, t.y.).

Gərgin ictimai-siyasi vəziyyətə münasibət respublikada yaradıcı ziyalıların təşəbbüsü ilə “75-lər bəyanatı” ilə hazırlanır və 28 aprel 1990-cı il tarixində “Elm” qəzeti səhifələrində dərc edilir.

Bəyanatda vurğulanırdı: "…respublika rəhbərliyi real ictimai qüvvələrin birləşdirilməsi istiqamətində yetərli addımlar atmır, keçmişdə buraxılmış səhvlərin təkrar olunması təhlükəsi hələ də mövcuddur. Həmçinin sənəddə qeyd edilirdi ki, ictimai sabitlik müvəqqəti xarakter daşıyır hərbi güc və davamlı sülhün təmin olunması üçün geniş ictimai konsensusun yaradılması mütləqdir. Demokratik qüvvələrin, xüsusilə də Azərbaycan Xalq Cəbhəsinin iştirakı olmadan bu məqsədə nail olmağın mümkün deyil" ("Elm" qəzeti, 1990).

İlk dəfə 20 yanvar hadisəsi və həlak olanlar haqqında dolğun məlumat verən qəzet "Səhər" qəzeti olub. Qəzetin qanlı qırğının xalqa çatdırılmasında unikal rolu olub. Nəşriyyatda oturan sovet nümayəndəsinin işə gəlməməsini fürsət bilən jurnalistlər nəşriyyatın rəhbəri ilə gizli görüş təşkil edirlər və "Səhər" qəzetinin 20 yanvarla bağlı nömrəsini çapa hazırlamağa başlayırlar. Qəzetin 11 əməkdaşı materiallar toplamaq üçün Bakının müxtəlif yerlərinə göndərilir. Ən vacib olan qanlfaciə barədə məlumatları, tanınmaz hala salınmış şəhidlərin fotolarını yaymaq idi. Bu yazıların hamısı qəzetdə bir başlıqda birləşir: "Vətən bu gün ağı deyir". Məzahir Süleymanlı qeyd edirdi ki, Qorbaçov Moskvadan deyirdi ki, "Bakıda dinc əhaliyə güllə atılmayıb". Biz dövlət başçısına deyə bilməzdik ki, yalan deyirsən. Əvəzində güllə ilə deşik-deşik edilmiş balkonun fotosunu verirdik. Bunu hərbi senzuradan keçirmək də böyük çətinliklər hesabına başa gəlib. "Səhər" 1990-91-ci illərdə Azərbaycanda yüksək tirajla nəşr edilən yeganə gündəlik qəzet olub. Qəzet fəaliyyəti dövründə ictimai fikrə təsir edən, xarici kütləvi informasiya vasitələrinin istinad etdiyi ən etibarlı xəbər mənbəyi rolunu oynayıb. 20 yanvar hadisələri zamanı həlak olan şəhidlərin ilk siyahısını da məhz "Səhər" qəzeti yayımlayıb.

## Nəticə

Demokratikləşmə və dövlət suverenliyi uğrunda mübarizə ümumittifaq məkanında ən yüksək mərhələsinə 1991-ci ildə çatdı. Azərbaycan xalqı da digər xalqlar və millətlər kimi bu mürəkkəb və dinamik siyasi proseslərdən yararlanaraq da öz dövlət müstəqilliyini bərpa etdi. 18 oktyabr ayının 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti-nin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Həmin tarixdən etibarən müstəqil Azərbaycan Respublikası dövlət quruculuğu prosesində iqtisadi, sosial, siyasi və hərbi sahələrdə sistemli və məqsədyönlü islahatlar həyata keçirdi. Bununla da, 69 il sonra 1991-ci ilin dekabrında SSRİ bir siyasi qurum kimi süqut etdi. Müstəqillik dövrü Azərbaycan publisistikasının ideya- estetik xüsusiyyətləri, üslub zənginliyi, azadlıq uğrunda mübarizə əhval-ruhiyyəsi, Qarabağ ətrafında gedən hadisələri təfərrüatı ilə işıqlandırmaq meyli, xalq və vətən taleyini ön plana çəkmək cəhdi diqqətəlayiqdir. Həmin səbəbdəndir ki, müstəqillik dövrü Azərbaycan bədii publisistikası və onun istinad etdiyi ədəbi- tarixi təcrübə indi mühüm aktuallıq kəsb edir, milli-mənəvi dəyərlərin qorunması, xalq yaddaşının mühafizəsi, milli dövlət quruculuğu və dünyaya inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır.

Müasir Azərbaycan jurnalistikanın formalaşmasına aparan yol müəyyən mənada qeyri-rəsmi xarakter daşıyan qəzetlərin fəaliyyəti ilə başlayır. Bu nəşrlər ilk növbədə, yeni informasiya mühitinin təşəkkülündə ilkin mərhələni təşkil edir. Qərb jurnalistika standartlarından bəhrələnən və müasir media prinsiplərinə dayanan ilk müstəqil mətbuat orqanları sırasında "Ayna" qəzeti, onun rusdilli versiyası "Zerkalo" qəzeti və "525-ci qəzet" xüsusilə qeyd olunur. Bu qəzetlər Azərbaycan mətbuatında yeni jurnalistika məktəbinin formalaşmasına, peşəkar jurnalistika prinsiplərinin yayılmasına öz nəşrləri ilə peşəkarlıq səviyyəsini, sənətkarlıq xüsusiyyətlərini qoruyub saxlaya biliblər.

**Ədəbiyyat**

1. Aşırlı, A. (2009). *Azərbaycan mətbuat tarixi*. Elm və Təhsil.
2. Babayeva, G. (2025). *Azərbaycan publisistikasının inkişaf mərhələləri (1875–2025)*. Elm.
3. "Elm" qəzeti. (1990, 28 aprel).
4. Əliyev, İ. (1989). *Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr*. Elm.
5. Əliyev, İ. (t.y.). *Yenidənqurma dövründə Sovetlər İttifaqında milli məsələ və etnik konfliktlər*. Strategiya.az. https://az.strategiya.az/news.php?id=7255
6. Əzimova, A. (2018). *Müstəqillik dövrü Azərbaycan bədii publisistikası*. Elm.
7. Hüseynova, İ. (2004). *Müstəqil Azərbaycan dövlətinin qurucusu*. Təhsil.
8. Mixail Qorbaçov: Niyə onun yenidənqurma siyasəti SSRİ-ni qoruya bilmədi. (n.d.). *BBC Azərbaycanca*. https://www.bbc.com/azeri/region-62735132
9. Məmmədli, S. (2018). *Müstəqil Azərbaycan mətbuat sistemi: Təşəkkülü və inkişafı (1991–2000)*. Bakı Universiteti.
10. Rüstəmov, A. (2018, 2 fevral). Milli münasibətlərin kəskinləşməsi şəraitində KİV-in fəaliyyəti. *525-ci qəzet*, 4.
11. Yaqublu, N. (2022). *Azərbaycan mətbuatı: Gizli nəşrlər*. Qanun.
12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20 yanvar 1990-cı il faciəsinin ildönümlərilə bağlı çıxışlarına dair ümumi tarixi arayış. (t.y.). *Heydər Əliyev İrsi Beynəlxalq Elektron Kitabxanası*. https://lib.aliyevheritage.org/az/5649464.html